II BÖLMƏ.
AQRAR SAHƏYƏ DÖVLƏT DƏSTƏYİ VƏ SAHİBKARLIĞIN İNKİŞAFI İSTİQAMƏTLƏRİ

UOT 332

Azər Ağazeynal oğlu QURBANZADƏ
Azərbaycan Kooperasiya Universitetinin
“Beynəlxalq ticarət və logistika” kafedrasının dosenti,
iqtisad elmləri üzrə fəlsəfə doktoru
https://doi.org/10.30546/4.71.73001.2024.004.020

KƏND TƏSƏRRÜFATINA DÖVLƏT DƏSTƏYİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN ƏHALİNİN ƏRZAQ TƏMİNATININ YAXŞILAŞDIRILMASINDA ROLU

Xülasə

Tədqiqatın məqsədi. Qlobal çağırışlar nəzərə alınmaqla kənd təsərrüfatına dövlət dəstəyinin müasir reallıqları əsas götürülməklə dövlət dəstəyinin təkmilləşdirilməsi ilə proseslərin ölkənin ərzaq təminatının yaxşılaşdırılmasına təsirinin müəyyənləşdirilməsindən ibarətdir.

Tədqiqatın metodologiyası. Kənd təsərrüfatına dövlət yardımı sisteminin ənənəvi formalarının xüsusiyyətlərinin tədqiq edilməsində və alternativ dövlət yardımı proseslərinin reallaşdırılması ilə bağlı müqayisəli, kompleks və sistemli yanaşma proseslərindən istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti. Kənd təsərrüfatına dövlət yardımının alternativ mənbələri və meyarlarının formalaşdırılması və prosesin əhalinin ərzaq təminatının yaxşılaşdırılmasına təsiri ilə bağlı tövsiyə xarakterli müddəaların işlənməsindən ibarətdir.

Tədqiqatın nəticələri. Kənd təsərrüfatına dövlət yardımının təkmilləşdirilməsi ilə bağlı meyarlarda əmtəəlik, məhsul və məhsuldarlıq amilinin çıxış etməsi qənaətinə gəlinir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi. Kənd təsərrüfatına dövlət dəstəyinin, ölkənin ərzaq təminatının yaxşılaşdırılmasında rolu, kənd təsərrüfatına dövlət yardımının ənənəvi meyarlarının spesifik xüsusiyyətləri, qlobal çağırışlar nəzərə alınmaqla ölkənin ərzaq təminatının yaxşılaşdırılmasının strateji əhəmiyyəti, kənd təsərrüfatına dövlət yardımının təkmilləşdirilməsi ilə yeni yanaşma proseslərinin ölkənin ərzaq təminatına təsiri ilə bağlı məsələlər öz əksini tapmışdır.

Açar sözlər: kənd təsərrüfatı, dövlət tənzimlənməsi, kənd təsərrüfatına dövlət yardımı, əmtəəlik, məhsul, məhsuldarlıq, əhalinin ərzaq təminatı.

Giriş

Cəmiyyətdə məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafında baş verən hər hansı dəyişiklik bəşər cəmiyyətinin üzləşdiyi qlobal problemləri arxa plana salmır. Məlum olduğu kimi qlobal problemlər bütün dövrlərdə öz aktuallığını saxlayır və cəmiyyət üzvlərinin mövcudluğu üçün bu və ya digər şəkildə təhdid mənbəyi kimi çıxış edir. Doğrudur, cəmiyyətdə məhsuldar qüvvələr və istehsal münasibətləri inkişaf etdikcə, texnologiyaların inkişafında zəruri dəyişikliklər baş verdikcə qlobal problemlərin sayı və əhatə dairəsi də artır. Lakin bütün bunlara baxmayaraq elə qlobal problemlər vardır ki, həmin qlobal problemlər bəşər cəmiyyətinin mövcud olduğu bütün dövrlərdən hal-hazıradək öz aktuallığını qoruyub saxlamaqdadır. Bu problemə ilk növbədə ərzaq problemi, başqa sözlə, əhalinin ərzaq təminatını şamil etmək olar. Əhalinin ərzaq təminatı ilə bağlı məsələlər hətta ibtidai cəmiyyətdə belə mövcud olmuş, qarşıdurmalara qədər yüksəlmişdir.

Danılmaz həqiqətdir ki, XIX əsrin sonlarından etibarən, bütövlükdə XX əsrdə və eləcə də XXI əsrin əvvəllərində ərzaq təminatının yaxşılaşdırılması, kənd təsərrüfatında mütərəqqi dəyişikliklərin tətbiqi ilə bağlı proseslər gerçəkləşdirilsə də, lakin bütün bunlar bütövlükdə bəşər cəmiyyətində

aclığa qalib gəlmək şanslarını hələ də tam mənası ilə doğrultmamışdır. Ərzaq probleminin həlli, ərzaq təminatının yaxşılaşdırılması sahəsində beynəlxalq təşkilatlar, dövlətlər, siyasətçilər, iqtisadçılar çərçivəsində çoxsaylı araşdırmalar aparılsa da, lakin reallıq bundan ibarətdir ki, dünyanın bir sıra ölkələrində aclıq problemi öz aktuallığını qoruyub saxlayır. Vəziyyəti mürəkkəbləşdirən məqamlardan biri də ondan ibarətdir ki, ərzaq problemi daha çox qlobal iqlim dəyişiklikləri fonunda özünü təzahür etdirdiyindən dünyada baş verən qlobal istiləşmə və digər bu kimi zərərli təmayüllər ərzaq təminatının pisləşməsinə gətirib çıxarır, insanların xeyli hissəsi aclıqdan və aclığın doğurduğu digər dolayı təzahürlərdən dünyasını dəyişir.

Məlum olduğu kimi, ərzaq təminatının yaxşılaşdırılmasında kənd təsərrüfatı əhəmiyyətli rol oynayan sahələrdən biri hesab edilir. Kənd təsərrüfatının inkişaf etdirilməsi, sahənin modernləşdirilməsi ekstensiv inkişafdan intensiv inkişafa transferi özündə birləşdirir. Ərzaq təminatının yaxşılaşdırılması istiqamətində mühüm addımlar bütün hallarda kənd təsərrüfatına dövlət dəstəyinin gücləndirilməsindən asılı olur. Məlum olduğu kimi, kənd təsərrüfatı yalnız sahənin imkanları hesabına inkişaf edə bilmir və bu sahənin riskli olmasından, təbii iqlim şəraitinə bağlı olmasından və digər bu kimi amillərdən qaynaqlanır. Odur ki, kənd təsərrüfatına dövlət yardımlarının göstərilməsi, dövlət dəstəyinin təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi İEOÖ-lər üçün xüsusi ilə aktuallıq kəsb edir. Nəzərə almaq lazımdır ki, dünyanın İEÖ-lərində artıq kənd təsərrüfatı modern sənaye əsasına keçmişdir. Ekstensiv inkişaf demək olar ki, tam mənası ilə öz mahiyyətini itirmiş, hətta dünyanın əksər İEÖ-də orqanik ekoloji təmiz məhsulların istehlakına daha çox üstünlük verilir. Bütün bunlar kənd təsərrüfatının dövlət yardımının yeni növmüxtəlifliklərinin yaranmasına da gətirib çıxarır. Bu baxımdan məqalədə kənd təsərrüfatına dövlət yardımının təkmilləşdirilməsinin ərzaq təminatının yaxşılaşdırılmasına təsiri ilə bağlı məsələlər öz əksini tapmışdır.

Ərzaq təminatında mövcud problemlər və onun yaranmasını şərtləndirən amillər. Dünya təcrübəsi göstərir ki, ərzaq təminatı ərzaq probleminin həllinə yönəldilmiş bütün tədbirlərin məcmusunu özündə əks etdirir. Ərzaq təminatı müasir şəraitdə çoxsaylı amillərin təsirinə məruz qalır. Bu amillər həm logistik problemlərlə, həm əhalinin istehlakında baş verən dəyişikliklərlə, əhalinin həyat səviyyəsindəki mövcud və dəyişən reallıqlarla, eləcə də kənd təsərrüfatının inkişafı ilə, daha doğrusu, ərzaq bazarında tələb və təklif arasında tarazlığın davamlı pozulması ilə sıx bağlı olur. Bir sıra iqtisadçılar və siyasətçilər hesab edirlər ki, ərzaq təminatında yaranan problemlər daha çox iqlim dəyişiklikləri ilə sıx bağlıdır və bu problemi aradan qaldırmaq o qədər də mümkün deyildir. Lakin bununla belə etiraf etmək lazımdır ki, ərzaq təchizatındakı böhran əlamətlərinin mövcudluğu hazırda sənayenin kənd təsərrüfatı üzərində hegemonluğundan deyil, eləcə də dünya iqtisadiyyatında da beynəlxalq münasibətlərin ümumi vəziyyətindən asılıdır. Bununla bağlı əks əlaqə də mövcuddur. Belə ki, dünyada gedən bir çox proseslər uzun illərdir ki, davam edir və dünya ərzaq bazarının fəaliyyətinin səmərəliliyindən asılı olmaqda davam edir. Eyni zamanda dünyada iqtisadi əlaqələrin transformasiyası qlobal və milli səviyyədə ərzaq probleminin həllinə müxtəlif formada təsir göstərmək iqtidarındadır [1].

Əhalinin qida məhsullarına olan tələbatının ödənilməsi səviyyəsini xarakterizə edən arqument olmaqla cəmiyyət üzvlərinin yaşayış imkanlarının nə dərəcədə reallaşdırılması ilə əlaqələndirilir. Bu, əslində, fasiləsiz, davamlı xarakter daşıyır. Odur ki, qida məhsullarının istehsalı dayanıqlı olaraq həyata keçirilməlidir. Məhz bu baxımdan ərzaq təminatının dayanıqlı inkişafı qlobal miqyas almaqla, cəmiyyətin ümumi inkişafında öz aktuallığını saxlamaqdadır [2, s.9]. Mövcud reallıq ondan ibarətdir ki, ərzaq təminatı dayanıqlı şəkildə qurulmadığından, daha doğrusu, ərzaq təminatında davamlı fasilələr baş verdiyindən və prosesə qlobal iqlim dəyişikliklərinin təsirini də nəzərə aldıqda artıq ərzaq təminatından bəhs etmək yersiz görünür və bütün bunlar artıq cəmiyyətdə ərzaq qıtlığının sosial fəlakət həddinə çatmasına səbəb olur. Hazırda klassik qıtlıq sosial fəlakət kimi uzunmüddətli ərzaq qıtlığının yaranmasına səbəb olur və bu da böyük bir regionun əhalisinin kütləvi məhvinə səbəb olur. Qıtlıqla müşayiət olunan və insanların həyatının adi vaxtlarında olmayan ümumi iqtisadi və sosial əlamətlər, xüsusilə qiymət artımı, ərzaq çatışmazlığı fonunda cəmiyyətdə baş verən ixtişaşlar, mülkiyyət cinayətlərinin artması, əhalinin sayının artması, əhalinin miqrasiya-

sının genişlənməsi və davamlı xarakter daşıması ilə səciyyələnir [3, s.6-7]. Məhz bu baxımdan yanaşdıqda hesab etmək olar ki, ərzaq təminatı ilə bağlı problemlərin kəskinlik dərəcəsi ölkələrin inkişaf səviyyəsindən də bilavasitə asılıdır. Ölkələrin iqtisadi inkişaf səviyyəsindəki fərqlər, daha doğrusu, İEÖ-lərlə, İEOÖ-lər arasındakı sərhədlərin daha da böyüməsi ərzaq təminatına da əhəmiyyətli dərəcədə təsir göstərir. Bu baxımdan artıq İEOÖ-də nəinki ərzaq təhlükəsizliyindən bəhs etmək, heç ərzaq təminatının özündən də bəhs etmək mümkün olmur. Bu baxımdan R.R. Qumerov hesab edir ki, ərzaq təhlükəsizliyinin ümumi əlamətləri şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati mənafelərinin daxili və xarici təhlükələrdən qorunması vəziyyəti və öz keyfiyyət xüsusiyyətlərini itirmədən onlara müqavimət göstərmək qabiliyyətidir [4, s.133-141]. İqtisadi inkişaf səviyyəsindəki fərqlər, təbii ki, cəmiyyət üzvlərinin həyat səviyyəsinə də bilavasitə təsir göstərir və eyni zamanda bu təzahürlər ərzaq təminatında daha çox kəskinliyi ilə özünü büruzə verir. Belə ki, inkişaf səviyyəsi aşağı olan ölkələrdə, təbii ki, ərzaq bazarından əhalinin istifadə imkanları çətinləşir. Ərzağın mövcudluğunda problem yaranır. Eyni zamanda ərzağın keyfiyyəti aşağı səviyyədə olur. Bundan əlavə, bu və ya digər qlobal iqlim dəyişiklikləri fonunda yaranan problemləri ölkələr öz üzərindən ata bilmirlər. Bu baxımdan dünyanın 10 İEÖ-si ilə 10 aşağı inkişaf səviyyəsinə malik ölkələri arasında qlobal ərzaq təhlükəsizliyi indeksi aşağıdakı cədvəldə öz əksini tapmışdır.


Aparılmış təhlillər göstərir ki, dünyanın təxminən 9 ölkəsində, o cümlədən, İrlandiyada, Avstriyada, Böyük Britaniyada, Finlandiyada, İsveçrədə, Niderlandda, Kanadada, Yaponiyada, Fransada və ABŞ-da qlobal ərzaq təhlükəsizliyi indeksi yüksəkdir. Bu eyni zamanda ərzaq bazarından istifadə imkanlarının yüksək olması, ərzaq məhsullarının mövcudluğu və ərzaq məhsullarının keyfiyyəti ilə də sıx bağlıdır. Lakin bununla belə qlobal ərzaq təhlükəsizliyi indeksində, demək olar ki, axrıncı yerləri bölüşdürən ölkələrdə qlobal ərzaq təhlükəsizliyi indeksi nəzərəçarpacaq dərəcədə aşağıdır. Bu proses eyni zamanda ərzaq məhsullarına əhalinin əlyetərliliyi, ərzaq məhsullarının mövcudluğu, məhsulun keyfiyyəti və digər amillərin səviyyəsində də öz əksini tapır.

Əhalinin ərzaq təminatına müasir dövrdə qloballaşma proseslərinin təsiri əhəmiyyətli dərəcədə yüksəkdir. Bu xüsusilə qlobal böhranlar və qlobal epidemiyalar fonunda özünü büruzə verir. Lakin bununla belə əhalinin ərzaq təminatına mənfi təsir göstərən klassik amillər də öz rolunu saxlayır və qloballaşma prosesinin təsiri daha da bu problemi kəskinləşdirir. Belə ki, hazırda əvvəlki aqrar-ərzaq böhranının əsas xüsusiyyətlərinə ərzaq məhsullarının qiymətlərinin kəskin dəyişməsini, əhalinin aztəminatlı qruplarının ərzağa çıxış imkanlarının pisləşməsini, eləcə də insanların sayının artmasını, habelə kiçik və orta istehsalçıların daha çox müflisləşməsini şamil etmək olar [5, s.143]. Onu da qeyd etmək lazımdır ki, son illər, xüsusilə, COVID-19 pandemiyasının baş verməsi İEOÖ-nün ərzaq təminatında özünəməxsus zərərli təmayüllər də formalaşdırmışdır. Belə ki, COVID-19 pandemiyasının ilkin mərhələlərində aqrar-ərzaq sektorunda çalışanların 35%-i, o cümlədən qida məhsulları istehsalında 21%, emal, xidmət və paylama sektorunda çalışan insanların 60%-i, nəqliyyat sektorunda çalışanların 40%-i, eləcə də aqrar sahənin elmi tədqiqatı ilə bağlı çalışanların 15%-i bilavasitə risklərə məruz qalmışdır [6]. Beləliklə, yuxarıda qeyd edilənlərdən belə qənaətə gəlmək olar ki, qloballaşma şəraitində ərzaq təminatına kifayət qədər çoxsaylı amillər təsir göstərir. Bu amillər içərisində, xüsusilə, qlobal proseslər, o cümlədən qlobal epidemiyalar və qlobal iqlim dəyişiklikləri də əhəmiyyətli dərəcədə təsir imkanına malikdir. Lakin bütün bunlara baxmayaraq, hesab etmək olar ki, qloballaşma şəraitində əhalinin ərzaq təminatının yaxşılaşdırılmasında ən mühüm amillərdən biri kənd təsərrüfatının inkişafı və eləcə də kənd təsərrüfatına dövlət dəstəyinin gücləndirilməsi hesab oluna bilər.

Kənd təsərrüfatına dövlət dəstəyinin təkmilləşdirilməsinin zəruriliyini əsaslandıran amillər və onun əhalinin ərzaq təminatının yaxşılaşdırılmasında rolunun əsaslandırılması. Kənd təsərrüfatına dövlət dəstəyi dedikdə, kənd təsərrüfatı əmtəə istehsalçılarına bilavasitə və dolayı yolla hökumət və dövlət orqanları, eləcə də yerli özünüidarəetmə orqanları tərəfindən verilən maliyyə və digər dövlət dəstəyi formalarının məcmusu başa düşülür.

Nəzəri tədqiqatlar göstərir ki, bir sıra hallarda kənd təsərrüfatına dövlət dəstəyi anlayışı kənd təsərrüfatının dövlət tənzimlənməsi sistemi ilə, demək olar ki, eyniləşdirilir. Lakin reallıq ondan

ibarətdir ki, dövlət tənzimlənməsi sistemi daha geniş anlayışdır və kənd təsərrüfatı istehsalını, eləcə də bütövlükdə cəmiyyətin inkişafının müxtəlif təsir vasitələrini özündə ehtiva edir. Dövlət tənzimlənməsi dövlət dəstəyi ilə yanaşı, həm də inzibati təsir, hüquqi təsir və digər məhdudlaşdırıcı tədbirlər sisteminin müxtəlif elementlərini özündə əks etdirir [7, s.65-70]. Müəllifin fikirləri ilə razılaşmaqla yanaşı, etiraf etmək lazımdır ki, doğrudan da kənd təsərrüfatına dövlət dəstəyi dövlət tənzimlənməsinin mühüm tərkib hissəsidir. Dövlət tənzimlənməsi daha geniş anlayışdır. Dövlət tənzimlənməsi sistemində lisenziyalaşdırma da, kvotalaşdırma da və digər amillər də əhəmiyyətli rol oynayır. Hesab etmək olar ki, aqrar sahənin mühüm tərkib hissəsini təşkil edən kənd təsərrüfatına dövlət dəstəyinin zəruriliyi ilk növbədə onunla bağlıdır ki, bazar şəraitində sahələrarası azad rəqabət mühitində adıçəkilən sahə müvəffəqiyyətlə iştirak etmək imkanına malik deyildir. Kənd təsərrüfatı əmtəə istehsalçıları istehsalın mövsümiliyi ilə bağlı, eləcə də təbii iqlim şəraitindən asılılıq baxımından müxtəlif təhdidlərə məruz qalırlar. Bu prosesin özünəməxsus səbəbləri isə ilk növbədə kənd təsərrüfatının əmtəə mübadiləsi sistemində qeyri-ekvivalentliyi ilə bağlıdır. Daha doğrusu, iqtisadiyyatın digər sahələri ilə müqayisədə kənd təsərrüfatı qeyri-ekvivalent mübadilə şərtlərinə malikdir. Bundan əlavə, sahənin investisiya cəlbediciliyi və eləcə də ölkə əhalisinin bir sıra hallarda alıcılıq qabiliyyətinin aşağı olması və eləcə də kənd təsərrüfatının neqativ faktorlara daha çox məruz qalması, xüsusilə, ekstensiv faktorların təsir imkanlarının güclənməsi kənd təsərrüfatına dövlət dəstəyinin zəruriliyini şərtləndirir [8, s. 97]. Kənd təsərrüfatına dövlət dəstəyini səciyyələndirən müxtəlif amillər mövcuddur ki, bu ilk növbədə kənd təsərrüfatı sahələrinin dəstəklənməsi ilə bağlıdır. Məlum olduğu kimi, kənd təsərrüfatı əsas etibarı ilə bitkiçilik və heyvandarlıq sahələrinin, eləcə də digər sahələrin dəstəklənməsini özündə əks etdirir. Bundan əlavə, kənd təsərrüfatında infrastruktur sisteminin dəstəklənməsi də kənd təsərrüfatına dövlət dəstəyinin mühüm tərkib hissəsini özündə əks etdirir. Bu baxımdan kənd təsərrüfatına dövlət dəstəyinin əsas istiqamətləri aşağıdakı şəkildə öz əksini tapmışdır:



Şəkil 1. Kənd təsərrüfatına dövlət dəstəyinin əsas istiqamətləri

Mənbə: Şəkil müəllif tərəfindən hazırlanmışdır.

İEÖ-nün təcrübəsi göstərir ki, kənd təsərrüfatına dövlət yardımı kifayət qədər geniş növmüxtəlifliyinə malikdir. Belə ki, bu zaman ilk növbədə istehsalçıların maliyyə nəticələrinin yaxşılaşdırılması, onların xərclərinin azaldılması istiqamətində zəruri tədbirlərin gerçəkləşdirilməsinə xüsusi diqqət yetirilməlidir. Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatı əmtəə istehsalçılarının məhsul istehsalına çəkdikləri xərclərin aşağı salınması, həm də istehsalın rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edir. Bu baxımdan əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Bəyalı Ataşovun belə bir fikri ilə razılaşmaq mümkündür ki, kənd təsərrüfatına irimiqyaslı investisiya axınının reallaşdırılması üçün yerli fermerlərə əlavə dəyərin yaradılması, birbaşa iştirak etmək imkanı verən alternativ və daha mütərəqqi təsərrüfatçılıq modellərinin tətbiqinə şərait yaradılması dövlətin əsas funksiyalarından biridir. Bu məqsədlə kənd təsərrüfatı və sənaye məhsulları qiymətlərində sonuncunun xeyrinə olmayan prioritetin dövlət tərəfindən tənzimlənməsi, ipoteka kreditləri bazarlarının inkişafı tədbirləri daha fəal surətdə həyata keçirilməlidir[9, s.97-98]. Müəllif fikirləri ilə razılaşmaqla yanaşı eyni zamanda əlavə etmək istərdik ki, dövlət yardımının bir sıra hallarda səmərəsiz xarakter daşıması dövlət büdcəsinin əlavə yüklənməsinə gətirib çıxarmaqla yanaşı, eyni zamanda həmin vəsaitlərin daha çox ekstensiv amillərin bərqərar olmasına yönəldilməsi intensiv inkişafın meyarlarını pozur. Onu da nəzərə almaq lazımdır ki, kənd təsərrüfatına dövlət yardımının səviyyəsi, əslində, ölkələrin inkişaf səviyyəsindən, dövlət büdcəsinin həcmindən, eləcə də ümumi daxili məhsulun həcmindən daha çox asılıdır. Təbii ki, bu zaman analoji olaraq belə bir nəticəyə gəlmək mümkündür ki, İEÖ-də kənd təsərrüfatına dövlət yardımlarının səviyyəsi İEOÖlərlə müqayisədə daha yüksək olacaqdır.

Statistik təhlillərə əsasən 2000-2021-ci illərdə Çində və ABŞ-da kənd təsərrüfatına dövlət yardımının həcmində sürətli artım dinamikası müşahidə edilmişdir. Avropa Birliyinə daxil olan ölkələrdə isə kənd təsərrüfatına dövlət yardımları, demək olar ki, stabil xarakter daşımışdır. Bu təmayül daha çox İsveçrədə və Norveçdə özünü büruzə verməkdədir. İqtisadi əməkdaşlıq və inkişaf Təşkilatının qiymətləndirmələrinə görə 2020-2022-ci illərdə kənd təsərrüfatına dövlət yardımının ümumi həcmi rekord səviyyəyə - ildə 851 milyard dollar səviyyəsinə çatmışdır. Hansı ki, bu təşkilata dünyanın 54 ölkəsi daxildir. 851 milyard ABŞ dolları məbləğində kənd təsərrüfatına yönəldilən dövlət yardımının 518 milyard dolları birbaşa subsidiyalaşdırma tədbirlərinin maliyyələşdirilməsinə, 333 milyard dollar isə bazar qiymətlərinin dövlət tənzimlənməsinə yönəldilmişdir [10].

İnkişaf etmiş ölkələrdə aqrar sahəyə dövlət yardımları dövlət dəstəyinin mühüm tərkib hissəsini təşkil etməklə modern kənd təsərrüfatının yaradılmasına xidmət edir. İnkişaf etməkdə olan ölkələrdən fərqli olaraq inkişaf etmiş ölkələrdə modern kənd təsərrüfatı intensiv istehsalın yaradılmasında önəmli rol oynayır. Məhsuldar bitki sortları və heyvan cinslərinin əmtəə istehsalçılarına verilməsi səmərəli təsərrüfat fəaliyyətinin maliyyə nəticələrinin yaxşılaşdırılmasında mühüm mənbə rolunu oynayır. Fikrimizcə, bu təcrübədən ölkəmizdə də davamlı şəkildə istifadə olunması mühüm əhəmiyyət kəsb edərdi. Bu istiqamətdə silsilə Dövlət Proqramları və Yol Xəritələrinin qəbul edilməsi respublikamızda, demək olar ki, davamlı hal almaqdadır. Bu baxımdan qlobal çağırışlar nəzərə alınmaqla respublikamızda, kənd təsərrüfatının subsidiyalaşdırılmasına 2000-ci illərin əvvəllərində başlanılmışdır. Ümumiyyətlə, 2000-ci illərdən etibarən Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafına yönəldilmiş dövlət proqramları çərçivəsində kənd təsərrüfatı rayonlarının da inkişaf etdirilməsinə istiqamətlənmiş tədbirlər genişlənməkdədir. Bundan əlavə, ölkə prezidentinin sərəncamı ilə kənd təsərrüfatının inkişafı ilə bağlı strateji yol xəritələri də qəbul olunmuşdur.

Məhz Strateji Yol Xəritəsində qarşıya qoyulan hədəflər doğrultusundan çıxış edərək belə qənaətə gəlmək olar ki, kənd təsərrüfatına dövlət yardımlarının təkmilləşdirilməsinə ehtiyac vardır. Bu təkmilləşdirmə prosesində başlıca meyar subsidiyaların torpaq sahəsinə və daha doğrusu, ərazi vahidinə görə deyil, məhsuldarlıq amilinə görə verilməsidir. Son illər kənd təsərrüfatı istehsalçılarına verilən subsidiyaların əhatə dairəsi genişləndirilmişdir. Azərbaycan Respublikası prezidentinin “Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında” 19 avqust 2015-ci il tarixli 136 nömrəli Sərəncamına əsasən, suni mayalanma yolu ilə alınmış hər baş buzova görə

heyvan sahiblərinə 100 manat həcmində subsidiyaların verilməsinə başlanılmışdır [11]. Bununla bərabər təkrar əkinlərə görə də istehsalçılara subsidiya verilməsi barədə qərarlar qəbul olunmuşdur. Təkrar əkinlərin subsidiya vasitəsi ilə stimullaşdırılması heyvandarlıqda yem təminatının yaxşılaşdırılmasına müsbət təsir göstərmişdir [12, s.191]. Hesablamalar göstərir ki, Azərbaycan Respublikasında kənd təsərrüfatına dövlət dəstəyinin göstərilməsində mühüm əhəmiyyət kəsb edən subsidiyaların yarıdan çoxu əkin sahəsinə görə verilmişdir. Yüksək məhsuldar toxum sortlarının və yüksək məhsuldar heyvan cinslərinin yetişdirilməsinə yönəldilmiş subsidiyalar isə məcmu supsidiyaların strukturunda təxminən 5-6%-ə qədər xüsusi çəkiyə malikdir. Bütün bunlar isə onu göstərir ki, dövlət büdcəsindən verilən subsidiyaların strukturunun təkmilləşdirilməsinə ehtiyac duyulur. Təkmilləşdirmə mahiyyət etibari ilə istehsalın intensivləşdirilməsinə xidmət etməklə, daha yüksək məhsuldarlığa nail olunmasına imkan verə bilər ki, bu da əhalinin ərzaq təminatının yaxşılaşdırılmasında və eləcə də ölkəyə idxal edilən kənd təsərrüfatı və ərzaq məhsullarının həcminin məhdudlaşdırılmasında əhəmiyyətli rol oynaya bilər.

Nəticə

Kənd təsərrüfatına dövlət yardımlarının, o cümlədən subsidiyaların strukturunun təkmilləşdirilməsi əhalinin ərzaq təminatının yaxşılaşdırılmasında mühüm mənbə rolunu oynaya bilər. Bu proses kənd təsərrüfatında məhsuldarlığın səviyyəsinin yüksəldilməsinə gətirib çıxarmaqla, daha az kənd təsərrüfatına yararlı torpaq sahəsi istifadə etməklə məhsul istehsalının artımına da imkan verə bilər. Fikrimizcə, kənd təsərrüfatına dövlət yardımının strukturunda məhsuldarlığın ön plana çəkilməsi rəqabət qabiliyyətinin yüksəldilməsində önəmli rol oynaya bilər. Bundan əlavə, kənd təsərrüfatında subsidiyaların strukturunda yüksək məhsuldar toxum sortlarına və yüksək məhsuldar heyvan cinslərinə üstünlük verilməsi əmtəəlik məhsulun həcminin də artmasına gətirib çıxaracaqdır ki, bu da daxili bazarın yerli istehsal hesabına ödənilməsində, eləcə də xarici bazara daha çox əmtəəlik məhsul çıxarmasına imkan verəcəkdir. Beləliklə, kənd təsərrüfatına dövlət yardımı (subsidiyaların) strukturunun təkmilləşdirilməsi hesabına alternativ ixracın həcminin artırılmasına nail olmaq mümkündür. Dövlət büdcəsindən ödənilən subsidiyaların strukturunun təkmilləşdirilməsi xarici bazara çıxarılacaq əmtəəlik məhsulun keyfiyyətinin yüksəldilməsinə, onun rəqabət qabiliyyətinin artırılmasına gətirib çıxarmaqla neftdən asılılığın aradan qaldırılmasında da əhəmiyyətli mənbə rolunu oynaya bilər.

ƏDƏBİYYAT

1. Л.С. Ревенко, О.И. Солдатенкова, Н.С. Ревенко / Глобальная продовольственная проблема: новые вызовы для мира и России. / ЭКОНОМИКА. НАЛОГИ, ПРАВО/ ECONOMICS, TAXES & LAW T. 15, № 4'2022.
2. A.A.Qurbanzadə. Dayanıqlı ərzaq təminatının iqtisadi əsasları. Bakı, 2013, 232 s, s. 9.
3. Ó Gráda C. Famine. A short hi story. Princeton: Princeton University Press; 2009. 344 p. P. 6-7.
4. Gumerov R. R. Food security: new approaches to content analysis and evaluation. Problemy prognozirovaniya = Studies of Russian Economic Development. 2020;(5):133-141. (In Russ.), s. 133
5. Исаченко Т.М., Ревенко Л.С Новая парадигма развития международных экономических отношений: вызовы и перспективы для России. Монография. М.: МГИМО-Университет; 2022. 403 с. Isachenko T. M., Revenko L. S. A new paradigm for the development of international economic relations: challenges and prospects for Russia. Moscow: MGIMO-University; 2022. 403 p. (In Russ.), s. 143.
6. Policy Brief: The Impact of COVID-19 on Food Security and files Nutrition. United Nations: 2020. URL: https://www.un.org/ sites/un2.un.org/files/sg_policy_brief_on_covid_impact_on food_security.pdf
7. Кувшинов В.А., Функционирование сельского хозяйства региона в условиях поддержки его государством / В.А. Кувшинов // Политика, экономика и социальная сфера: проблемы

взаимодействия. - 2015.- №1.-С.65-70.
8. Савченко Е.С. Экономическое регулирование агропромышленного производства (вопросы теории и практики). – М.: Экономии информатика, 2000. – 320 с., с. 97
9. B.X.Ataşov. Aqrar sahədə struktur və səmərəlilik problemləri (Nəzəriyyə və praktika), Bakı, 2017, 536 s, s. 97,98
10. İntosairussia.org/ru/novosti-media/kratkie-obzory/monitoring-i-otsenka-selskokhozyajstven - noj-politiki-v-2023-g.html
11. “Heyvanların cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında” Azərbaycan Respublikası Prezidentinin 19 avqust 2015-ci il tarixli Sərəncamı.
12. Azərbaycanda aqrar sahənin inkişafında Ümummilli lider Heydər Əliyevin rolu. Bakı, 2023, 260 s, s. 191

Азер Агазейнал оглы Гурбанзаде
Азербайджанский Университет Кооперации
Доцент кафедры «Международная торговля и логистика»,
Доктор философии по экономическим наукам

Роль совершенствования государственной поддержки сельского хозяйства в улучшении продовольственного обеспечения населения

Резюме

Цель исследования. С учетом глобальных вызовов государственная поддержка сельского хозяйства заключается в определении влияния процессов господдержки на улучшение продовольственного обеспечения страны путем совершенствования государственной поддержки с учетом современных реалий.

Методология исследования. Процессы сравнительного, комплексного и системного подхода были использованы при изучении характеристик традиционных форм системы государственной помощи сельскому хозяйству и реализации альтернативных процессов государственной помощи.

Прикладное значение исследования. Он заключается в формулировании альтернативных источников и критериев государственной помощи сельскому хозяйству и разработке рекомендательных положений относительно влияния этого процесса на улучшение продовольственного обеспечения населения. Результаты исследования. Сделан вывод о том, что товарный, продуктовый и производительный факторы играют роль в критериях улучшения государственной помощи сельскому хозяйству.

Оригинальность и научная новизна исследований. Роль государственной поддержки сельского хозяйства в улучшении продовольственного обеспечения страны, особенности традиционных критериев государственной помощи сельскому хозяйству, стратегическое значение улучшения продовольственного обеспечения страны с учетом глобальных вызовов, влияние новых подходов на ситуацию в стране. продовольственного снабжения с улучшением государственной помощи сельскому хозяйству.

Ключевые слова: сельское хозяйство, государственное регулирование, государственная помощь сельскому хозяйству, товар, продукт, производительность, продовольственное обеспечение населения.

Azer Agazeynal Gurbanzade
Azerbaijan Cooperation University
Docent of the "International trade and logistics" department,
Doctor of Philosophy in Economic Sciences

The role of improving the state support for agriculture in improving the food supply of the population

Summary

The purpose of the study. Taking into account global challenges, state support to agriculture consists of determining the impact of state support processes on improving the country's food supply by improving state support based on modern realities.

Research methodology. Comparative, complex and systematic approach processes were used in the study of the characteristics of the traditional forms of the state aid system for agriculture and the implementation of alternative state aid processes.

Applied significance of the study. It consists in the formulation of alternative sources and criteria of state aid to agriculture and the development of recommendatory provisions regarding the impact of the process on improving the food supply of the population.

Results of the study. It is concluded that the commodity, product and productivity factors play a role in the criteria for improving the state aid to agriculture.

Originality and scientific innovation of research. The role of state support to agriculture in improving the country's food supply, the specific characteristics of the traditional criteria of state aid to agriculture, the strategic importance of improving the country's food supply taking into account global challenges, the impact of new approaches on the country's food supply with the improvement of state aid to agriculture have been reflected. .

Key words: agriculture, state regulation, state aid to agriculture, commodity, product, productivity, food supply of the population.